UOT 32:93/94

**MURAZ SÜLEYMANOV**
*Bakı Dövlət Universiteti*
*Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin doktorantı*
**Murazsuleymanov01@gmail.com**

# AZƏRBAYCAN RESPUBLİKASINDA E-HÖKUMƏTİN YARANMASI VƏ ELEKTRON İDARƏÇİLİYƏ DAİR QANUNVERİCİLİK BAZASININ FORMALAŞDIRILMASI

DOI: https://doi.org/10.36719/2708-065X/106/230-235

*Məqalədə yeni dövlət idarəetmə forması kimi elektron hökumətin yaranmasından, formalaşmasından, aktuallığından və bu sahədə qəbul edilmiş qanunvericilik aktlarının əhəmiyyətindən bəhs olunur. Eyni zamanda, Azərbaycan Respublikasında elektron idarəçilik sahəsində həyata keçirilən islahatlar, qəbul edilən qanunlar şərh edilir və müvafiq təkliflər qeyd olunur. Müasir dövrdə elektron hökumət demokratiyanın bir göstəricisi kimi çıxış edir, çünki elektron hökumət özündə şəffaflıq, operativlik, səmərəlilik, nəzarət və hesabatlılıq kimi məfhumları ehtiva edir. Elektron hökumətə keçid inkişaf etməkdə olan ölkələrə nisbətdə inkişaf etmiş ölkələrdə daha erkən baş vermiş və formalaşdırılmışdır. Lakin e-hökumətin özəl xüsusiyyətlərindən biri onun dünya dövlətlərinin idarəçiliyi prosesinə daha sürətlə yayılması və formalaşması olmuşdur. Burada informasiya və kommunikasiya avadanlıqları müstəsna əhəmiyyətə malikdir. Texnologiyaların sürətli inkişafı dövlət idarəçiliyinə də təsirsiz ötüşməmiş və bu sahədə islahatların həyata keçirilməsini tezləşdirmişdir. Demokratik idarəetmənin bir göstəricisi kimi rəqəmsal idarəetmənin formalaşması hökumətlər qarşısında duran əsas məqsədlərdən biri olmuşdur. Azərbaycan Respublikasında da bu sahəyə son illərdə xüsusi diqqət yetirilməsi dövlət xidmətlərinin elektronlaşdırılması, vətəndaş-məmur münasibətlərinin minimuma endirilməsi və bütün proseslərdə şəffaflığın, təhlükəsizliyin təmin edilməsinə dəstək olmuşdur.*

*Açar sözlər:* informasiya, idarəetmə, qanunvericilik, e-hökumət, rəqəmsallaşma.

***Giriş***. Rəqəmsal eraya keçid edilmiş müasir dövrdə informasiya texnologiyaları bütün sahələrə öz təsirini göstərir. Bu sahələrdən biri kimi dövlət idarəçiliyinin rəqəmsal fəaliyyətinin həyata keçirilməsində elektron hökumət vasitəçi rolunda çıxış edir. İnformasiyalaşan cəmiyyətdə ənənəvi idarəetmənin artıq vətəndaşlara xidmətlərin göstərilməsi istiqamətində tələbatlara tam şəkildə cavab verə bilməməsi, yeni dövlət idarəetməsinin yaranmasını zəruri etdi. Dövlət xidmətlərinin həyata keçirilməsində zaman itkisi, regionda yaşayan vətəndaşlarla qurumlar arasında məsafə uzaqlığı və bu səbəbdən vətəndaşların xidmətlərə əlçatanlılığının aşağı olması, dövlət xidmətlərinin tam effektiv şəkildə həyata keçirilməməsi və s. kimi faktorlar elektron hökumətin formalaşdırılması prosesini sürətləndirmiş oldu.

Müasir dövrdə hər bir dövlətin idarəçilik sahəsində inkişafını göstərən əsas şərtlərdən biri elektron hökumətin səmərəli təşkil olunması və effektiv fəaliyyətidir. Elektron hökumət dövlət xidmətlərinin keyfiyyətinin artırılması, fəaliyyət zamanı istifadə olunan məlumatların tamlığının, həqiqiliyinin, etibarlılığının qorunması, iş yükünün azaldılması, uzaq məsafədə yaşayan insanların dövlət xidmətlərinə əlçatanlılığının maksimum şəkildə təmin olunması, fəaliyyətlərə nəzarətin daha rahat şəkildə tətbiq edilməsi və xidmətlərin həyata keçirilməsində şəffaflıq prinsipinin qoruması kimi müsbət keyfiyyətləri özündə əks etdirir.

Hər bir dövlətdə elektron hökumət müəyyən bir qanunvericilik bazasına əsaslanır. Elektron hökumət məhz qanunvericiliyə uyğun olaraq fəaliyyət göstərməlidir. Bu səbəbdən elektron hökümətdən danışarkən əsas olaraq onunla bağlı qanunvericilik bazasını araşdırmağımız zəruridir.

Bütün bunları nəzərə alaraq bu məqalədə məqsədimiz elektron hökumətin aktuallığını vurğulayaraq bu sahə ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyini analiz etmək, yeni qanunların qəbulunun labüd olduğunun əhəmiyyətini göstərmək və bütün bunlarla bağlı təklifləri irəli sürməkdir. Ümumilikdə, məqalədə müvafiq sahə ilə bağlı Azərbaycanda qəbul edilmiş qanunlar və dövlət sənədlərinə, həmçinin, xarici və yerli mənbələrə istinad edilmişdir.

***Elektron hökumətə keçid***. Qloballaşan vahid informasiya cəmiyyətinin yaranması prosesinin başlanğıcını qoyan informasiya və kommunikasiya texnologiyaları əsri kimi tanınan XXI əsrdə vətəndaş-məmur münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Ənənəvi idarəetmənin yaranmış tələbatlara cavab verməməsi yeni dövlət idarəçiliyinin yaranmasını labüd etmişdir. "Elektron dövlət" layihə olaraq hər şeydən əvvəl, dövlət idarəetməsinə müvəffəq olmaq üçün elmi-texniki tərəqqi nailiyyətlərinin həyata keçirilmə prosesi kimi nəzərdən keçirilmişdir. Elektron hökumət layihəsində dövlət xidmətləri və məlumatların vətəndaşlara çatdırılması üçün internet və mobil cihazlar kimi rəqəmsal texnologiyalardan istifadə edilməsi nəzərdə tutulur. Yeni dövlət idarəçiliyinin əsas məqsədi şəffaflığı və operativliyi təmin etməklə vətəndaşlara artan dövlət xidmətləri portfelini səmərəli və qənaətcil şəkildə təqdim edilməsidir.

Dünyada dövlət idarəetməsi sahəsində islahatların aparılması 1980-ci illərdən daha böyük əraziləri əhatə etməyə başlamışdır. Buna səbəb dövlət xidmətlərinə tələbatın artması, vətəndaşlar tərəfindən dövlət aparatının işinin səmərəliliyinin artırılmasına dair tələbləri, hakimiyyət institutlarına ictimai etimadın aşağı düşməsi və s. idi [11, s.309]. Bir çox mütəxəssislərin fikrincə, bu hərəkat son 100 ildə dövlət idarəetməsinin fəlsəfəsində və paradiqmasında baş verən ən ciddi dəyişiklərdən biri hesab edilirdi.

E-hökumət üç əsas sahəni əhatə edir:

- e-administrasiya: idarəetmənin daxili və xarici inzibati proseslərini təkmilləşdirməyi hədəfləməklə, planlaşdırma, monitorinq və nəzarət kimi fəaliyyətlərin təmin edilməsidir. Dövlət idarəçiliyinin həyata keçirilməsində elektron administrasiyanın əsas məqsədi idarəetmənin müxtəlif maraqlı tərəfləri arasında yeni formada strateji əlaqələr yaratmaqdır ki, bu da tədqiqat imkanlarını, idarəetmə prosesini istiqamətləndirən strategiya və siyasətlərin işlənib hazırlanmasını və həyata keçirilməsini stimullaşdırır;
- e-demokratiya: Burada vətəndaş iştirakı nəzərdə tutulmaqla yanaşı, bu sahə həm də məmurlara müəyyən qədər muxtariyyət verir, eyni zamanda onların qərarlarına və hərəkətlərinə görə məsuliyyətini artırmış olur;
- e-cəmiyyət: Elektron cəmiyyət yaradılmış tərəfdaşlıqlar və təşkilati qrupların formlaşması ilə sosial-iqtisadi inkişaf prosesində iştirakını təmin edir. Dövlət idarəçiliyinin müvafiq səviyyəsində dövlət sektoru prosedurları asanlaşdırmaq və gözlənilən məqsədlərə nail olan maneələri sıfıra endirmək üçün vasitəçi kimi fəaliyyət göstərən əməkdaşlıq yanaşmasına xüsusi diqqət yetirir və bu sahəyə həssas yanaşılmasını vacib hesab edir [9, s.44-45].

***Elektron hökumətin inkişafı***. Son illər inkişaf etmiş ölkələrdə demokratiyanı daha da inkişaf etdirən amillərdən biri "E-government" (e-hökumət) anlayışının formalaşdırılması hesab edilir. Əsas məqsəd sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" azaltmaq, həmçinin bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın əsas vasitələri hesab olunur.

Yeni dövlət idarəçiliyi, bir çox ölkələrdə müdafiə olunduğu kimi, bürokratiyadakı menecerlərin öz işlərini yerinə yetirmə tərzində "liberallaşdırmağı" müdafiə edir və bununla da onlar üzərində birbaşa inzibati nəzarətin bir hissəsini azaldır, əsasən, istehsala və istehsala daha çox diqqəti cəlb etmək üçün bazar qüvvələrini səfərbər edir. Vətəndaşlara müştəri kimi yanaşmaq bu perspektivin mühüm ölçüsünü təşkil edir. Üstəlik, sahibkarların fəaliyyətinin liberallaşdırılması, adətən, siyasi liderlərin səmərəliliyə və effektivliyə daha çox diqqət yetirməsi deməkdir. Bürokratiyanın azaldılması səylərində siyasi liderlər vətəndaşların "fərdi müştərilər və ictimai xidmətlərin kollektiv istehlakçıları" kimi yenidən müəyyən edilməsini nəzərdən keçirirlər. Dövlət xidmətlərinin bu bazarlaşdırılmasında məqsəd ayrı-ayrı vətəndaşların seçim imkanlarını artırmaq olmuşdur. Bu səbəbdən də bir çox xidmət sahələrdə dövlət xidmətləri göstərənlər həm öz aralarında, həm də özəl sektor arasında sağlam rəqabət əsasında fəaliyyət göstərirlər.

Azərbaycan Respublikasında elektron hökumətin formalaşması son illəri əhatə etmişdir. Müstəqillik əldə etdikdən sonra bu sahəyə xüsusi diqqət yetirilmişdir. Beləki, elektron dövlət idarəçiliyi ilə bağlı "Elektron Azərbaycan" Dövlət Proqramı və "E-hökumət" layihəsi əsasında 2003-2012-ci illəri əhatə edən Milli Strategiyanın işlənib hazırlanması xüsusi rola malikdir [1]. Burada əsas məqsəd dövlət

qurumlarında informasiya texnologiyalarından istifadəni genişləndirmək, idarəetmə və ictimaiyyət ilə bağlı qərar qəbulunda vətəndaş iştirakını təmin etmək və dövlət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaqdır. Elektron Azərbaycan strategiyasının reallaşdırılması məqsədilə 2004-cü ildə Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yaradılmışdır. Hal-hazırda isə həmin nazirliyin adı dəyişdirilərək Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi olmuşdur.

***Qanunvericilik bazasının formalaşdırılması***. Azərbaycan Respublikasında Elektron hökümətlə bağlı qanunvericilik bazasının formalaşdırılmasının təmin edilməsi məqsədilə bir sıra hüquqi sənədlər qəbul edilmişdir. Milli Strategiya təsdiq edildikdən sonra 23 may 2011-ci ildə "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidentinin fərmanı əsasında elektron hökümətlə bağlı normativ hüquq aktların beynəlxalq standartlara uyğun xidmət göstərməsi üçün hüquqi baza formalaşdırılmışdır [2].

İKT-nin inkişafı vasitəsilə dövlət xidmətlərin elektron formada, vahid məkanda inteqrasiyası məqsədilə Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən, Rabitə və Yüksək Texnologiyalar nazirliyinə elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında təşkili üçün "Elektron hökumət" portalının təkmilləşdirilməsi ilə bağlı tapşırıqlar verilmiş və Prezidentin göstərişi əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi yaradılmışdır [3].

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaranması mühüm əhəmiyyət kəsb etmişdir. Agentliyin tabeliyində fəaliyyət göstərən ASAN xidmət mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş formada həyata keçirilməsini təmin edən qurumlar kimi hazırda vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. "ASAN xidmət" mərkəzləri dövlət qulluqçularının fəaliyyətinin səmərəliliyinin artırılması, məmur-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni müstəviyə keçməsi istiqamətində xüsusi rola malik olmuşdur. Mərkəzlərin yaradılmasında əsas məqsədlər aşağıdakılardır:

- Vaxt itkisinin qarşısının alınması;
- Əlavə xərclərin minimuma endirilməsi;
- Peşəkarlıq səviyyəsinin artırılması ilə dövlət qurumlarına etimadın artırılması;
- Korrupsiyaya qarşı mübarizə;
- Ənənəvi xidmətlərdən elektron xidmətlərə keçid edilməklə, dövlət xidmətlərinin elektronlaşdırılması və s.

Elektron Hökumət Portalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 mart 2018-ci il tarixli 1885 nömrəli fərmanına əsasən "Elektron Hökumətin İnkişafı Mərkəzi"nin bir istiqaməti kimi fəaliyyətə başlamışdır. Azərbaycan Respublikasının Milli Elektron Hökumət Portalı dövlət qurumlarının elektron xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edilməsini həyata keçirir. Burada vətəndaşlar qanunvericiliyə uyğun formada dövlət orqanlarının portala qoşulmuş informasiya məlumatlarını əldə edə bilərlər. Portalın əsas fəaliyyət istiqaməti kimi bütün xidmətlərin vahid platforma üzərindən, yəni "bir pəncərə" prinsipinin tətbiqini göstərə bilərik [4].

Egov portalı vasitəsilə həftənin bütün günləri xidmətlər həyata keçirilir və bu xidmətlərin üç istiqamətdə qruplaşdırılması mümkündür:

- Hökumətdən vətəndaşlara (G2C);
- Hökumətdən sahibkarlara (G2B);
- Hökumətdən hökumətə (G2G).

Hazırda dövlət xidmətləri ilə bağlı vahid məlumat portalında 144 dövlət qurumu mövcuddur ki, onlardan 31-i mərkəzi icra hakimiyyəti orqanları, 79-yerli icra hakimiyyəti orqanları, 31-i hüquqi şəxslər və 3-ü digər büdcə təşkilatlarını təşkil edir. Qeyd edilən dövlət qurumları tərəfindən 1186 dövlət xidməti həyata keçirilir və onların yarısından çoxunu, yəni 608 xidmət elektron qaydada təqdim olunur [4].

Beynəlxalq təcrübənin öyrənilməsi və uğurlu tətbiqi inkişafın əsas açarı hesab edilir. Buna görə də daxili imkanlarla yanaşı mütəmadi olaraq beynəlxalq təcrübənin araşdırılması egov portalının fəaliyyətinin əhəmiyyətini daha da artırmış olacaq. Lakin, portalın perspektiv imkanlarını saxlamaq üçün informasiya və məlumatların təhlükəsizliyi məqsədilə onun texniki-texnoloji tərəflərinə mütəmadi ola-

raq nəzarətin həyat keçirilməsi vacibdir. Portalın təhlükəsiz fəaliyyətinin təmin edilməsi üçün ən son texnoloji avadanlıqlardan istifadə edilməsi mühüm rol oynayır.

***Nəticə***. İdarəetmənin yeni konsepsiyası kimi elektron hökumətin əhəmiyyəti danılmazdır. Hər ötən gün informasiya texnologiyalarının daha da inkişaf etməsi dövlət idarəçiliyi sahasinə də öz təsirini göstərir. Bu istiqamətdə beynəlxalq təcrübənin araşdırılması və öyrənilməsi, eyni zamanda, əməkdaşlıq edilməsi vacib əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasında elektron hökumətə dair qəbul edilmiş qanunlara nəzər salsaq bu sahəyə xüsusi diqqət yetirildiyini əminliklə qeyd etmək mümkündür. Həmçinin, ölkədə bu sahədə inkişafın və təhlükəsizliyin təmin edilməsi məqsədilə aşağıdakı məsələlərin tətbiqi məqsədəuyğun hesab edilmişdir:

- Şəxsi məlumatların və informasiya təhlükəsizliyinin təmini məsqədilə qanunların sərtləşdirilməsi və nəzarət mexanizminin gücləndirilməsi;
- Elektron hökumətə ictimai etimadın artırılması istiqamətində maarifləndirmə işlərinin aparılması;
- Qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində beynəlxalq təcrübənin araşdırılması;
- Yeniliklərə uyğunlaşma.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 17 fevral 2003.
2. “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikasının Prezidentinin Fərmanı, Bakı şəh, 23 may 2011.
3. “Azərbaycan Respublikasında 2010-2011-ci illərdə “Elektron hökümət”in formalaşdırılması üzrə Fəaliyyət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Sərəncamı, Bakı şəh., 14 may 2010.
4. “Elektron hökumət” portalı haqqında Əsasnamə”nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəh., 5 fevral 2013.
5. “Elektron hökumət” portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı”-nın və “İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin “Elektron hökumət” portalına qoşulması üçün Texniki Tələblər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı, Bakı şəh., 1 may 2014.
6. Abasova S. Texnologiyalar və yeniliklərin idarəedilməsi. Bakı, 2008, 288 s.
7. Əliquliyev R.M., Yusifov F.F. Elektron dövlətin formalaşmasının bəzi aktual elmi-nəzəri problemləri və həll perspektivləri // İnformasiya cəmiyyəti problemləri, 2014, №2, s.3-13.
8. Hacızadə M.E. İnformasiya cəmiyyətinin formalaşması amilləri və onun Azərbaycanda inkişaf meylləri // İnformasiya cəmiyyəti problemləri, Bakı-2015, №2, s.71-81.
9. Ibadov, N., Mammadli, N. Electronic government: theoretical foundations and directions of an action // Political Science and Security Studies Journal, 2023, 4(2), p.43-48.
10. Martin, William J. The global information society. UK: Aslib Gower, 1995.
11. Süleymanov M. Elektron hökumətə ictimai etimadın formalaşdırılması və cəmiyyətin informasiyalaşdırılması problemi. Doktorant və Gənc Tədqiqatçıların XXVI Respublika Elmi Konfransı. 2023, s.308-311.
12. Shivakumar Kolachalam, An Overview of E-Government// International Symposium on Learning Management and Technology Development in the Information and Internet Age. University of Bologna November 2002.
13. E-govşaz – Elektron hökumət Portalı. - www.e-gov.az [17.06.2024].
14. Dövlət Qulluqçularının etik davranışları haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 31 may 2007-ci il, №352-IIIQ. - https://e-qanun.az/framework/13685 [17.06.2024].
15. Azərbaycan Hüquq İslahatları Mərkəzi – AHİM. - http://www.lawreform.az/ [17.06.2024].

16. www.serialsjournal.com [17.06.2024].
17. İnformasiya təhlükəsizliyi sahəsində fəaliyyətin təkmilləşdirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. Bakı şəhəri, 26 sentyabr 2012-ci il, № 708. - https://e-qanun.az/framework/24353 [17.06.2024].
18. İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 3 aprel 1998-ci il, № 460-IQ. - https://e-qanun.az/framework/3525 [17.06.2024].
19. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. - mincom.gov.az/az/view/pages/57/ [17.06.2024].

**МУРАЗ СУЛЕЙМАНОВ**
*Докторант факультета международных отношений и экономики*
*Бакинского государственного университета*

## СОЗДАНИЕ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ И ФОРМИРОВАНИЕ ЗАКОНОДАТЕЛЬНОЙ БАЗЫ ЭЛЕКТРОННОГО УПРАВЛЕНИЯ

В статье говорится о возникновении, становлении, актуальности электронного правительства как новой формы государственного управления и значении законодательных актов, принятых в этой сфере. В то же время интерпретируются реформы, реализуемые в сфере электронного управления в Азербайджанской Республике, принятые законы и отмечаются соответствующие предложения. В наше время электронное правительство выступает индикатором демократии, поскольку электронное правительство включает в себя такие понятия, как прозрачность, эффективность, контроль и подотчетность. Переход к электронному правительству произошел и произошел раньше в развитых странах, чем в развивающихся. Однако одной из особенностей электронного правительства стало его быстрое распространение и формирование в процессе управления мировыми государствами. Исключительное значение здесь имеет информационно-коммуникационное оборудование. Бурное развитие технологий не оказало влияния на государственное управление и ускорило реализацию реформ в этой сфере. Формирование цифрового управления как индикатора демократического управления было одной из главных целей, стоящих перед правительствами. В Азербайджанской Республике особое внимание, уделяемое этой сфере в последние годы, способствовало электронизации государственных услуг, минимизации отношений между гражданами и должностными лицами, а также обеспечению прозрачности и безопасности всех процессов.

*Ключевые слова:* информация, управление, законодательство, электронное правительство, цифровизация.

**MURAZ SULEYMANOV**
*Doctoral student of Faculty of International Relations and Economics*
*of Baku State University*

## CREATION OF E-GOVERNMENT IN THE REPUBLIC OF AZERBAIJAN AND FORMATION OF THE LEGISLATIVE FRAMEWORK FOR ELECTRONIC ADMINISTRATION

The article talks about the emergence, formation, relevance of electronic government as a new form of state administration and the importance of legislative acts adopted in this field. At the same time, reforms implemented in the field of e-governance in the Republic of Azerbaijan, adopted laws are interpreted and relevant proposals are noted. In modern times, e-government acts as an indicator of democracy, because e-government includes concepts such as transparency, efficiency, control and

accountability. The transition to e-government took place and took place earlier in developed countries than in developing countries. However, one of the special features of e-government has been its rapid spread and formation in the process of governance of world states. Information and communication equipment is of exceptional importance here. The rapid development of technologies has not left an impact on public administration and has accelerated the implementation of reforms in this field. The formation of digital governance as an indicator of democratic governance has been one of the main goals facing governments. In the Republic of Azerbaijan, paying special attention to this field in recent years has supported the electronicization of state services, the minimization of citizen-official relations, and the provision of transparency and security in all processes.

*Keywords:* information, management, legislation, e-government, digitization.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 17 iyun 2024-cü il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Rəyçilər: t.ü.f.d. Xatirə Əfəndiyeva, t.ü.f.d. Məmmədağa Baxışov.*

---